


# GMT-Master II

Oyster, 40 mm, Oystersteel

**Oystersteel materialından hazırlanmış, qara siferblatı və Oyster bilərziyi olan Oyster Perpetual GMT-Master II modeli.**






24 SAATLIQ DÖVR EDəN BEZEL

# Qabaqcıl yüksək texnologiya

Bu model qara siferblatı və ikirəngli İki istiqamətdə dövr edən 24 saatlıq şkalalı bezel. Keramikdən hazırlanmış ikirəngli - qəhvəyi və qara Cerachrom bezel əlavəsi, qəliblənmiş rəqəmlər və işarələr bezeli ilə seçilir. Adi saat, dəqiqə və saniyə əqrəblərinə əlavə olaraq GMT-Master II dövrünü 24 saata tamamlayan ox uclu əqrəbə, eyni zamanda iki istiqamətdə dövr edən 24 saatlıq şkalalı bezelə malikdir.

Fərqli şəkildə rənglənmiş 24 saatlıq əqrəb bezeldəki şkalada oxuna bilən birinci saat qurşağındakı istinad vaxtını göstərir. Yaylı başlıqla idarə olunan orijinal mexanizm sayəsində saatdan saata birbaşa keçməklə səyahətçinin yerli vaxtını asanlıqla qurmaq mümkündür: saat əqrəbini dəqiqə və saniyə əqrəblərindən asılı olmayaraq önə və ya arxaya keçirmək olar. Bunun sayəsində xronometrajın dəqiqliyinə təsir etmədən yeni saat qurşağına uyğunlaşmaq imkanı yaranır. Cerachrom bezel əlavəsi qara və bu model üçün ayrılmış eksklüziv yaşılın orijinal rəng kombinasiyasına malikdir.




QARA SIFERBLAT

# Bütün hallarda yüksək oxunaqlılıq

Bütün Rolex Professional saatları kimi GMT-Master II də Chromalight displeyi sayəsində bütün şəraitlərdə, xüsusən də qaranlıqda müstəsna oxunuş təklif edir. Üçbucaq, dairə və düzbucaqlı kimi sadə formalı geniş əqrəblər və saat göstəriciləri uzunmüddətli parıltı yayan lüminessent materialı ilə doldurulur.

Saatın bu yeni versiyasında tac və tac qoruyucusu saat korpusunun sol tərəfində yerləşir. Həmçinin

tarix aperturası və Cyclops linzanın yeri saat 9 mövqeyinə dəyişdirilib.



OYSTERSTEEL

# Korroziyaya qarşı çox davamlı

Rolex polad qol saatları üçün Oystersteel istifadə edir. Brend tərəfindən xüsusi olaraq hazırlanmış Oystersteel yüksək texnologiyada və korroziyaya maksimum müqavimətin vacib olduğu aviasiya və kimya sənayesində ən çox istifadə edilən paslanmayan 904L polad ailəsinə aiddir.

Oystersteel son dərəcə davamlıdır, cilalandıqdan sonra müstəsna bir nəticə verir və ən sərt mühitlərdə belə gözəlliyini qoruyur.



OYSTER BILəRZIYI

# Forma və funksionallığın vəhdəti

Oyster bilərziyi forma və funksionallığın, estetika və texnologiyanın ideal vəhdəti olmaqla bərabər, eyni zamanda möhkəm və rahatdır. Təsadüfən açılmasının qarşısını alan Oysterclasp qatlanan qarmağı və Rolex-ə özəl rahat Easylink uzatma əlaqələndiricisi ilə təchiz olunub.

Bu orijinal sistem bilərziyin uzunluğunu təxminən 5 mm artırmaqla istənilən vəziyyətdə əlavə rahatlıq verir.

# Ətraflı texniki məlumatlar GMT-Master II

İstinad 126720VTNR

## Modelin korpusu

**Növ**
Oyster, 40 mm, Oystersteel

**Diametr**
40 mm

**Material**
Oystersteel

**Bezel**
İki istiqamətdə dövr edən 24 saatlıq şkalalı bezel. Keramikdən hazırlanmış ikirəngli - qəhvəyi və qara Cerachrom bezel əlavəsi, qəliblənmiş rəqəmlər və işarələr

**Oyster arxitekturası**
Monoblok orta korpus, vintləri tənzimləmək üçün arxa korpus və burulan tac

**Burulan tac**
Vintlə tənzimlənən, sukeçirməz, üçqat Triplock sistemi

**Kristal**
Cızıqlara qarşı dözümlü sapfir, tarixin üzərində Cyclops linza

**Suyadavamlılıq**
100 metr/330 fut dərinliyə qədər suyadavamlı

## Mexanizm

**Növ**
Perpetual rotor, mexaniki, avtomatik qurulan, GMT funksiyası

**Kalibr**
3285, Rolex İstehsalı

**Dəqiqlik**
-2/+2 san/gün, sərt üst quruluş

**Ossilyator**
Silikondan hazırlanmış, patentləşdirilmiş həndəsi sxemə sahib Parachrom saat spiralı. Yüksək performanslı Paraflex amortizatorlar

**Burulan**
Perpetual rotor ilə ikiistiqamətli avtomatik qurulan

**Enerji ehtiyatı**
Təxminən 70 saat

**Funksiyalar**
Mərkəzi saat, dəqiqə və saniyə əqrəbləri. 24 saatlıq displey. Saat əqrəbinin müstəqil şəkildə sürətli tənzimləməsi ilə ikinci vaxt qurşağı. Cari tarix. Vaxtın dəqiq qurulması üçün saniyələrin dayandırılması

## Bilərzik

**Növ**
Oyster, üçhissəli möhkəm əlaqələndiricilər

**Bilərziyin materialı**
Oystersteel

**Qarmaq**
Easylink 5 mm-lik rahat uzatma əlaqələndiricisi ilə qatlanan Oysterlock təhlükəsizlik qarmağı

## Siferblat

**Növ**
Qara

**Detallar**
Uzunmüddətli göy lüminesansa sahib, aydın oxunaqlı Chromalight displeyi

# Sertifikat

---

**Növ**

Superlative Chronometer (rəsmi xronometr sertifikatı + sərt üst quruluş üzrə Rolex sertifikatı)

# Rolex.com saytında daha çoxu ilə tanış olun və kəşf edin

**Ticarət nişanları, xidmət nişanları, ticari adlar, dizaynlar və müəllif hüquqları kimi bütün əqli mülkiyyət hüquqları qorunur.**

Bu veb-saytda verilənlərdən yazılı icazə olmadan təkrar istifadə etmək olmaz. Rolex bu veb-saytda göstərilən modelləri istənilən vaxt modifikasiya etmək hüququnu özündə saxlayır.

ROLEX